# MOZAİKA

### “ƏFQAN QIZI” REKORD QİYMƏTƏ SATILIB

*Lent.az-ın Türkiyə «NTV»-sinə istinadən məlumatına görə, «Kristes» muzeyində təşkil olunan açıq hərracda Steve Mək Karrinin çəkdiyi bu şəkil rekord qiymətə, 147 min dollara satılıb*



National Geographic» jurnalının 1985-ci il iyun tarixindəki sayında yayımlanan qorxu dolu yaşıl gözləri ilə o vaxtkı, elə indiki Əfqanıstanın düşdüyü vəziyyəti özündə əks etdirən, baxışları ilə ölkənin simvoluna çevrilən «Əfqan qızı» fotosu Nyu-York muzeyində keçirilən hərracda təxmin edilən qiymətdən üç dəfə bahasına alınıb.

125 illik tarixində jurnal ilk dəfə 11,5 milyon fotodan 232-ni hərraca çıxarıb

### CİB TELEFONU İLƏ DANIŞAN 200 DOLLAR CƏRİMƏLƏNƏCƏK

*Bu yasaq subay, yaxud ərsiz qadınlara aiddir*



Hindistanın şimalındakı Bihar ştatında qəribə bir hadisə ilə bağlı araşdırma işi başlayıb. Lent.az-ın «BBC»-yə istinadən məlumatına görə, bu iş qadınlara cib telefonlarından istifadənin yasaqlanması haqdadır.

Tupmani kənd icmasına başçılıq edən kişilər subay, yaxud ərsiz qadınlar evlərindən kənarda cib telefonundan istifadə edəcəkləri halda 200 dollar cərimələnəcəklərinə dair qərar qəbul ediblər. Qərar qəbul olunandan sonra 6 ay ərzində 6 qız öz sevgilisi ilə ailə qurmaq üçün evdən qaçıb.

Mənbənin məlumatına əsasən, bu il, bir müddət öncə ölkənin başqa bir kəndində də oxşar qərar qəbul edilmişdi, ancaq onun kağız üzərində qaldığı bildirilib.

### DÜNYANIN ƏN UZUN SÜRƏTLİ DƏMİR YOLU

*Çində dünyanın ən uzun sürətli dəmir yolu rəsmi olaraq istifadəyə verilib*



APA-nın bbc.com saytına istinadən verdiyi xəbərə görə, Çinin paytaxtı Pekini Quancou şəhəri ilə birləşdirən sürətli dəmir yolunun uzunluğu 2,5 min kilometrdir. Bu yolda hərəkət edən qatarların sürəti saatda 300 km olacaq və bununla Quancouaya çatmaq üçün sərf olunan vaxt 22 saatdan 10 saata qədər azalacaq. Pekin-Quancou dəmir yolunda 35 dayanacaq nəzərdə tutulub.

## KRAL MİNİ - YUBKALARI YASAQLADI

*Afrikada yerləşən və dünyanın ən kasıb ölkəsi olan Svazilenddə kral 3-cü Msvati qadınların mini-yubka ilə top (crop-top) geyinmələrini qadağan edib*



Kralın fərmanına riayət olunmasına polis nəzarət edəcək.

Kral fərmanında bildirilir ki, qadınların mini-yubka geyinmələri və ya topda gəzmələri "onların zorlanmasına rəvac verir".

Bundan başqa, fərmanda deyilir: "Əgər qadının əlindən nə isə yerə düşərsə, o, həmin əşyanı aşağı əyilib götürməməli, şaquli vəziyyətdə çöмələrək əşyanı götürməlidir ki, yubkasının ətəyi yuxarı qalxmasın".

Fərmanı pozan qadını 6 aylıq həbs gözləyir.

Afrikadakı son absolyut monarxiya olan Svazilenddə bu minvalla 1889-cu ildəki müstəmləkə qanunları bərpa olunub.

Manzini şəhərində küçələrə çıxan qadınlar isə kralın fərmanına etiraz edərək, bunun insan haqlarının kobud şəkildə pozulması olduğunu deyiblər.

Kral 3-cü Msvatinin 13 arvadı var. Əhalinin 97 faizinin səfillikdə yaşadIğı ölkənin başçısı çox dəbdəbəli həyat sürür.

## MƏŞHUR AKTYOR BOŞANDI, 290 MİLYON DOLLAR ÖDƏDİ

*Amerikalı aktyor, Hollivud ulduzu Eşton Katçer qalmaqalla boşandığı aktrisa Demi Mur ilə boşanma problemini həll edib*



O, Mura 290 milyon dollar məbləğində boşanma təzminatı ödəməyə razılıq verib.

Boşanmanın səbəbi 34 yaşlı Katçe**r**in 7 ildən bəri nikahda olduğu 50 yaşlı Mura xəyanət etməsidir. Xəyanət aşkarlanandan sonra Katçerlə Mur ayrılmış, bir il ayrı-ayrı evlərdə yaşamışdılar.

Mur boşanmağa razı olduğunu, amma bunun üçün Katçerin 290 milyon dollar məbləğində təzminat ödəməli olduğunu demişdi. Katçer ilk əvvəl razılaşmasa da, sonda razılaşıb.

Eşton Katçerlə Demi Mur 2005-ci ilin sentyabrında evlənmişdilər.

Demi Mur bundan əvvəl 13 il nikahda olduğu məşhur aktyor Bryus Uillisdən boşanmış, təzminat qismində 90 milyon dollar almışdı.

Murun Uillislə nikahdan Rumer, Skaut və Talula adlı üç qızı var.

## İRANDA QADINLARA MOTOSİKLET YARIŞLARINDA İŞTİRAK ETMƏYƏ RƏSMƏN İCAZƏ VERİLİB

*Trend-in məlumatına görə, bu barədə cümə axşamı "Young journalists' club" agentliyi İranın Motoavto Federasiyasının (MAFIRI) vitse-prezidenti Hüseyn Şəhriyariyə istinadən məlumat verir*



"Bu məsələni İranın Gənclər və İdman Nazirliyi ilə razılaşdırdıqdan sonra MAFIRI qadınlara idman yarışlarında motosiklet sürmək hüququ verilməsi üçün lisenziya almağa nail olub", - Şəhriyari jurnalistlərə deyib.Onun sözlərinə görə, qadınlar arasında motosiklet yarışlarında iştirak etmək istəyənlərin sayı çox olduğundan onların qanunsuz yolla motosiklet sürməsi halları baş verib."İndi belə qanunsuz fəaliyyətə lüzum yoxdur. Onlara motosiklet yarışçısı olmağa rəsmən icazə verilib", - Şəhriyari deyib və əlavə edib ki, rəsmi lisenziya almaq üçün 7 ay vaxt tələb olunub.Onun sözlərinə görə, qadınların motosiklet sürməsi dini qaydalarla ziddiyyət təşkil etmir və buna görə də onlar yarışlarda sərbəst iştirak edə, eyni zamanda, sürücülük vərdişlərini təkmilləşdirə bilərlər.

## AİLƏSİ QIZDAN 150 METR UZAQLAŞDIRILDI

*ABŞ-ın Ohayo ştatında yaşayan 21 yaşlı Obri Ayrlend ailəsini məhkəməyə vermişdi*



Məhkəmənin qərarına görə, Obrinin ailəsinin üzvləri ona 150 metrdən yaxına gələ bilməzlər.

Milli.Az The Hollywood Gossip-ə istinadən bildirir ki, Ayrlend ailə üzvlərinin onun telefonuna təqib proqramı yazaraq harada olduğunu müəyyənləşdirdiyini, telefon danışıqlarına gizlicə qulaq asdıqlarını deyib.

"Özümü boğazında xalta olan köpək kimi hiss edirdim", - Obri deyib.

Sinsinati Universitetinin nəzdindəki konservatoriya-kollecdə oxuyan Obri üç il davam edən bu vəziyyətdən bezdiyini və məhkəməyə müraciət etdiyini deyib.

## MÜƏLLİMLƏR İŞƏ SİLAHLA GƏLƏCƏKLƏR

*ABŞ-ın bir sıra ştatlarında müəllimlərə işə silahla gəlməyə icazə verilib.*

Bu barədə Trend xarici KİV-ə istinadən xəbər verir.

Belə ki, Yuta ştatında 150-dən artıq müəllim atıcılıq kurslarına getməyə başlayıb. Onlara müdafiənin və gizli silah daşımanın əsasları öyrədilir.

Bu addım dekabrın əvvəlində Konnektikutda baş verən faciə ilə əlaqədardır. O zaman Adam Lans məktəbdə 26 nəfəri güllələmişdi. Bundan əvvəl o, müəllim işləyən anasını qətlə yetirmişdi.

## DAR ƏL HƏCƏR: QAYADAKI SARAY

*Bu tarixi bina Yəmənin simvollarından biri sayılır.*



Milli.Az bildirirki, "İmam sarayı" adlanan saray payxat Sənadan 15 km aralıda, məşhur Vadi Dharda, Suk əl Vadi kəndindədir.

## YAPONİYADA QIZILI MƏBƏD



Bu məbəd Yaponiyanın Kioto şəhərində yerləşir.

## RƏNG İNSAN ŞÜURUNA TƏSİR GÖSTƏRİR

*Kembric Universitetinin mütəxəssisləri deyirlər ki, bizi əhatə edən rənglər müəyyən psixoloji təsir göstərməyə qadirdir*

Bundan başqa, rənglər fikirləri tamamilə müxtəlif tərəflərə yönəldə bilər. Tədqiqat zamanı ekspertlər eksperiment iştirakçılarından müxtəlif mənəviyyat dilemmalarını qiymətləndirməyi xahiş etmişlər. Bu zaman alimlər qara, ağ və rəngli fon yaradaraq müəyyən sualları ekrana çıxarmışlar.

Aydın olmuşdur ki, insanlar ağ və ya qara rəng qarşısında, yəni monoxrom fonda daha radikal fikir söyləyə bilirlər.

Mütəxəssislərin fikrincə, hətta interyer detallarının rəngi beyində fikirlərin formalaşmasına müəyyən təsir göstərə bilər. Məsələn, divardan asılmış qara rəngli xalça mənfi əhval-ruhiyyənin formalaşmasına təsir göstərməyə qadirdir, qırmızı rəng isə təhlükə və sayıqlıq hissi yaradır.